AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**NİGAR ELDAR QIZI ZEYNALOVA**

# PEDAQOJİ-PSİXOLOJİ FƏNLƏRİN TƏDRİSİ PROSESİNDƏ TƏLƏBƏLƏRİN MÜSTƏQİL İŞİNİN TƏŞKİLİ

5804.01–Ümumi pedaqogika, pedaqogikanın və
təhsilin tarixi

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2015**

Dissertasiya işi Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər :** **Akif Nurağa oğlu Abbasov**
*pedaqogika üzrə elmlər doktoru, professor, əməkdar müəllim*

**Rəsmi opponentlər**: **Sərdar Musa oğlu Quliyev**
*pedaqogika üzrə elmlər doktoru, professor, əməkdar müəllim*

**Mircəfər Mirməsi oğlu Həsənov**
*pedaqogika üzrə fəlsəfə doktoru, professor, əməkdar müəllim*

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Pedaqogika və psixologiya kafedrası

Müdafiə " 02 " 06– 2015– ci il tarixdə saat " " – də Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 02.061 dissertasiya şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

**Ünvan:** AZ 1000, Bakı şəhəri, Ü. Hacıbəyli küçəsi, 68.

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat " " ———— 2015– ci ildə göndərilmişdir.

**Dissertasiya şurasının elmi katibi:** **K.R.Quliyeva,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Pedaqogika elminin mövcud olduğu müddət ərzində hər dövr onun qarşısına özünə uyğun tələblər qoymuş və bu da elmin əhəmiyyətli dərəcədə inkişafına səbəb olmuşdur. Azərbaycan müstəqillik əldə etdiyi dövr ərzində iqtisadi, sosial və pedaqojı böhranla mübarizə aparmış və XXI-ci əsrə müəyyən nailiyyətlərlə gəlmişdir. Bu əsrin xüsusilə ali təhsil sahəsinə münasibətdə özünəməxsus tələbləri vardır. Bu gün müasir, peşəkar, fəal və müstəqil yaradıcılıq qabiliyyətinə malik, daim özünütəhsilə və özünütəkmilləşməyə maraq göstərən mütəxəssis hazırlığı problemi ali məktəb qarşısında qoyulan mühüm məsələlərdən biridir.

Dünyada baş verən proseslərdə yaradıcı və savadlı şəxsiyyətin rolu danılmazdır, bu səbəbdən müasir təhsil sosial və iqtisadi inkişafın aparıcı amili kimi müəyyənləşmiş və ali təhsilli insana, onun biliklərinə və onlardan istifadə imkanlarına olan baxışlar da dəyişmişdir.

Hazırda təhsilin ənənəvi bilik modullu, bilik paradiqmalı olması müasir zamanın tələblərinə cavab vermədiyi üçün digər bir modul, paradiqma olan fasiləsiz təhsilə üstünlük verilir. Fasiləsiz təhsil cəmiyyətdə, dünyada baş verən dəyişikliklərlə bağlı insanın daim, ömür boyu özünütəhsillə məşğul olması, bilik, bacarıqlarını artırması, öz üzərində mütəmadi çalışması deməkdir[1].

Azərbaycan Boloniya prosesinə qoşulduğu üçün onun bütün müddəa və normalarına riayət etməyi və yerinə yetirməyi öz üzərinə götürmüşdür[2]. Avropa təhsil müəssisələri artıq tələbələrin əsas təhsilini auditoriyada, mühazirə və seminarda deyil, müstəqil şəkildə tövsiyə edilmiş ədəbiyyatın öyrənilməsi, esselərin yazılması, tədqiqatın aparılmasında nəzərdə tutur. Hazırda müstəqil işin təşkili problemi dünya pedaqoji-psixoloji ədəbiyyatında geniş müzakirə olunan mövzulardandır. Ali təhsildə bu gün əsas məsələlərdən biri əmək fəaliyyətinin istənilən sahəsində özünü təsdiq edən, yararlı olan, bilik və bacarıqlarını aidiyyətı üzrə tətbiq edə bilən şəxsiyyət yetişdirməkdir. Təlim fəaliyyətinin səmərəsi təlimin nəticələri ilə, yəni tələbələrin əldə etdikləri bilik, bacarıq

---

[1] Петров А.В. и др. Самостоятельная познавательная деятельность в системе развивающего обучения / Петров А.В., Петрова О.В., Цулая Л.В. // Наука, культура, образование, 2001, № 8/9 с. 150 - 154

[2] Байденко В.И. Выявление состава компетенций выпускников вузов как необходимый этап проектирования ГОС ВПО нового поколения: Методическое пособие. М., 2006, 55 с.

və kompetensiyalarla ölçülür. Bunların böyük hissəsi isə müstəqil təhsil, özünütəhsil zamanı əldə edilir. Bunun üçün peşə və şəxsiyyət hazırlığında kompetensiyalı yanaşmalara üstünlük verilir[1]. Eyni zamanda bu məqsədə çatmaq üçün müasir informasiya texnologiyaları da kifayət qədər rol oynayır. Onların inkişafı təhsil sahəsinin köklü dəyişikliyinə səbəb olmuşdur. Dünyada aparılan araşdırmalar sübut etmişdir ki, müasir dövrdə əksər peşələrin aktuallıq müddəti 5 il davam edir. Belə olan halda tələbələrin müstəqil işləmək, özünütəhsillə məşğul olmaq bacarıqları, onların formalaşması xüsusi aktuallıq kəsb edir. Bu səbəbdən tədqiqatımızda müasir təlim prosesi və müstəqil iş prosesi anlamlarının, onların xüsusiyyətlərinin, təlimin müasir forma, metod və vasitələrindən istifadənin pedaqoji universitet tələbələrinin müstəqil işinin səmərəsinin artmasında rolunu təhlil edəcəyik.

Ali məktəblərdə problemlə bağlı vəziyyətin təhlili onu da göstərir ki, bu gün Azərbaycanın təhsil müəssisələrində tələbələrin müstəqil işinin təşkilinə və yerinə yetirilməsinə lazımi önəm və diqqət verilmir. Hazırda təlim proqramlarında tələbələrin müstəqil işinə əlavə vaxt ayrılmır, bu isə tələbələrin müstəqil işinin lazımi səviyyədə təşkil olunmamasına, müəllim tərəfindən keçirilən mühazirə, praktik və laborator məşğələlərin keyfiyyətinin aşağı düşməsinə gətirib çıxarır. Belə şəraitdə müstəqil fəaliyyət bacarığı olmayan tələbələr müstəqil işin təşkili və keçirilməsi ilə bağlı bir sıra problemlərlə üzləşir və bu da öz növbəsində təlim materialının lazımi səviyyədə qavranılmaması ilə nəticələnir. Tələbələrin müstəqil işinin təşkilində digər bir problem də onların işinə müəllim tərəfindən nəzarət prosesinin düzgün və lazımi səviyyədə qurulmamasıdır. Bununla da tələbələrin müstəqil işinin sonunda yalnız nailiyyətlərin yekun qiymətləndirilməsi həyata keçirilir və təlimin digər funksiyaları (öyrədici, inkişafedici və tərbiyəedici) müvafiq dərəcədə inkişaf etdirilmir.

Təlim-tərbiyə prosesində müstəqil işləmək bacarığının formalaşması problemi pedaqogika elminin tarixində dəfələrlə araşdırılan məsələlərdəndir. Tələbələrin müstəqil idrak fəaliyyətinə pedaqoji nəzarətin vacibliyini bir çox alimlər qeyd etmişlər. Onlardan K.D. Uşınski, N.Q. Çernışevski, P.İ. Pidkasistı, N.F. Talızina və b.-nın adlarını çəkmək mümkündür. Pedaqoji ədəbiyyatda müstəqil işə müxtəlif təriflər verilir. A.V. Usova, Y.K. Babanski, L.V. Jarova müstəqil işi-təlim metodu kimi; Q.Ş. Pidkasistı-təlim vasitəsi kimi; V.L. Şatunovski, O.V. Doljenko-təlim

[1] Леонтьев А.Н. Деятельность. Сознание. Личность. М.: Политиздат, 1975, 304 с.

fəaliyyətinin formasının və idrak fəaliyyətinin təşkili vasitəsinin sintezi kimi; A.V. Petrovski-biliklərin əldə etmə vasitəsi və təlim işinin növü kimi; V.A. Slastenin-təlim forması kimi; A. Ayzenberq, Q.N. Serikov-özünütəhsilin əsası, biliklərin əldə edilmə prosesinin elementi kimi; F. Vaynert, L. Korno, D. Şunk-təlim strategiyalarının toplusu və s. kimi təsvir etmişlər.

Müasir dövrdə ali təhsildə kredit sisteminə keçidlə əlaqədar olaraq tələbələrin müstəqil fəaliyyətinə daha çox üstünlük verildiyindən müstəqil işin mahiyyəti, onun pedaqoji-psixoloji fənlərin tədrisində rolu, yeri və xüsusiyyətləri dərindən öyrənilməli və təlim prosesində tələbələrin müstəqil işinin təşkili problemi sistemlilik və ardıcıllıq gözlənilmək şərti ilə işlənilməlidir. Burada tələbələrin pedaqoji məsələləri müstəqil həll etmək və müstəqil işləmək bacarığının üzə çıxarılmasına əsas diqqət yetirmək lazımdır, çünki qeyd etdiyimiz kimi, hazırda təhsildə bu sahədə çoxlu sayda qeyri-müəyyənlik, pərakəndəlik var, tələbə və gənc mütəxəssislərin müstəqil işləmək bacarığı sahəsində işin təşkili tam və düzgün təşkil edilməmişdir, müasir cəmiyyətin tələbatlarını ödəmir və peşəkar mütəxəs-sislərin formalaşmasını təmin etmir. Tələbələrin müstəqil işinin təşkilində pedaqoji şərait, tələbələrin müstəqil işinin idarə olunması, İKT-dən istifadə, müstəqil işin yerinə yetirilməsində məntiqi, tənqidi, yaradıcı təfəkkürün inkişaf etdirilməsi, müstəqil işə dair tapşırıqların tələbələrin fərdi xüsusiy-yətlərini nəzərə alaraq tərtib edilməsi, müstəqil işə müvafiq qiymətlən-dirmə-nəzarət fəaliyyətinin təşkili xüsusi əhəmiyyət daşıyır. Müasir təhsil sistemində tələbələrin müstəqil işinin təşkili metodikasına dair müəl-limlərin bilik və bacarıqlarının olması, tələbələrin peşə hazırlığı prosesində müəllim fəaliyyətinin düzgün qurulması, tələbələrdə müstəqil fəaliyyət göstərmək üçün bilik və bacarıqların formalaşması və inkişafı, müstəqil işin müxtəlif formalarından istifadə, müstəqil işin həyata keçirilməsi prosesində fərdi və qrup işindən istifadə, müstəqil işin məqsədyönlü, peşəyönümlü təşkil olunması, müstəqil işin vaxtının təyin olunması məsələləri diqqət mərkəzindən kənarda qalmış və bu səbəbdən onun səmərəli həyata keçirilməsinə əngəl yaranmışdır. Bütün bu faktları nəzərə alaraq pedaqoji-psixoloji fənlərin tədrisi prosesində pedaqoji vəzifələri müstəqil həll etmək bacarığına malik tələbələrin hazırlanması, o cümlədən tələbələrin müstəqil işinin təşkili prosesi problemi üzə çıxır. Problemin aktuallığı və onun əhəmiyyəti tədqiqatın mövzusunu «Pedaqoji-psixoloji fənlərin tədrisi prosesində tələbələrin müstəqil işinin təşkili» kimi müəyyən etmişdir.

**Tədqiqatın obyektini** ali pedaqojı məktəblərdə təlim prosesi təşkil edir.

**Tədqiqatın predmetini** ali pedaqoji məktəblərdə pedaqoji-psixoloji fənlərin tədrisi prosesində tələbələrin müstəqil işi üzrə fəaliyyətin sistemi təşkil edir.

**Tədqiqatın məqsədi** ali məktəblərdə pedaqoji-psixoloji fənlərin tədrisi prosesində tələbələrin müstəqil işinin təşkilini pedaqoji problem kimi əsaslandırmaqdan, onun məqsədini, mahiyyətini və vəzifələrini müəyyənləşdirməkdən, problem baxımından elmi-pedaqoji ədəbiyyatın təhlilini aparmaqdan, tələbələrin müstəqil işinin təşkilinin səmərəli yollarını üzə çıxarmaqdan ibarətdir.

**Tədqiqatın fərziyyəsi**: tələbələrin müstəqil işinin təşkili prosesində müstəqil işin konteksti, yəni vaxtı (müddəti), yeri, lazım olan vasitə və vəsaitlər müəyyən edilərsə, müstəqil işin yerinə yetirilməsində müəllim-tələbə münasibətləri yeni müstəvidə qurularsa, yəni ənənəvi müəllimyönümlü məcradan çıxıb skaffoldinq strategiyasına əsasən həyata keçirilərsə, müstəqil işin yerinə yetirilməsində internetin informasiya resurslarından istifadə edilərsə tələbələrin müstəqil pedaqoji-peşə bacarıqlarının formalaşması, yəni pedaqoji-peşə kompetensiyalarının səviyyəsi yüksələr.

**Tədqiqatın vəzifələri:**

1. Müasir dövrdə ali pedaqoji məktəblərdə pedaqoji-psixoloji fənlərin tədrisində tələbələrin müstəqil işinin təşkilinin məqsəd və mahiyyətini araşdırmaq, vəzifələrini müəyyənləşdirmək;
2. Ali pedaqoji məktəblərdə pedaqoji-psixoloji fənlərin tədrisində tələbələrin müstəqil işinin təşkilinin psixoloji əsaslarını müəyyənləşdirmək;
3. Ali pedaqoji məktəblərdə pedaqoji-psixoloji fənlərin tədrisində tələbələrin müstəqil işinin təşkili problemini elmi-pedaqoji ədəbiyyatda araşdırmaq;
4. Ali pedaqoji məktəblərdə pedaqoji-psixoloji fənlərin tədrisi prosesində tələbələrin müstəqil işinin təşkilinə verilən tələbləri üzə çıxarmaq;
5. Ali pedaqoji məktəblərdə pedaqoji-psixoloji fənlərin tədrisi prosesində tələbələrin müstəqil işinin təşkilində motivasiyanın əhəmiyyətini və yaranma yollarını müəyyənləşdirmək;
6. Ali pedaqoji məktəblərdə pedaqoji-psixoloji fənlərin tədrisində tələbələrin müstəqil işində İKT-nin rolunu müəyyən etmək, internet şəbəkənin resurslarından istifadə edərək işin strukturunu qurmaq;
7. Ali pedaqoji məktəblərdə pedaqoji-psixoloji fənlərin tədrisi prosesində tələbələrin müstəqil işinin təşkilinin səmərəli yollarını işləyib hazırlamaq, o cümlədən müəllim-tələbə münasibətlərinin yeni formalarını müəyyən edib, nəticə etibarilə onun səmərəliliyini eksperiment vasitəsilə yoxlamaq.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və prosesləri öyrənmək, təhlil etmək və dəyişdirmək məqsədi ilə tətbiq olunan prinsiplərin, metodların və nəzəri müddəaların məcmusu təşkil edir.

**Tədqiqatın metodları:** nəzəri təhlil, müşahidə, müsahibə, anketləşdirmə, pedaqoji eksperiment.

**Tədqiqatın elmi yeniliyi:** dissertasiyada ali məktəblərdə pedaqoji-psixoloji fənlərin tədrisi prosesində tələbələrin müstəqil işinin təşkilinin şəxsiyyətyönümlülük prinsip əsasında məqsədi, mahiyyəti, vəzifələri, psixoloji əsasları araşdırılır, tələbələrin müstəqil işin təşkilinə və yerinə yetirilməsinə dair motivasiyasının artması, müstəqil işi səmərəli həyata keçirmək məqsədilə pedaqoji şəraitin müəyyən edilməsi, tələbələrin müstəqil işinin şəxsiyyətyönümlü, diferensial, sistemlilik və kompetensiyalara əsaslanan metodologiyasının hazırlanması, müstəqil işin səmərəli yollarının təşkili, o cümlədən müəllim-tələbə münasibətlərinin yeni formalarının müəyyən edilməsi, tələbələrin müstəqil işinin tərifinin verilməsi, tələbələrdə təlim məqsədlərinə çatmaq üçün problem həlli, müstəqil qərar qəbul etmək, müstəqil işləmək və s. bacarıqların müstəqil fəaliyyət vasitəsi ilə formalaşmasına dair işin sistemi yaradılır.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Əsərdə irəli sürülən elmi ideyalar pedaqogika nəzəriyyəsini yeni ideyalarla zənginləşdirə bilər, işin elmi əsaslar üzərində qurulmasını təmin edər.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatın nəticələri tələbələrin müstəqil işinin həyata keçirilməsinə və pedaqoji hazırlığının təkmilləşdirilməsinə istiqamətlənib. Tələbələrin müstəqil işinin skaffoldinq strategiyası əsasında veb-kvestlə təşkili Avropa Şurasının və YUNESKO-nun XXI əsr üçün əsas hesab etdikləri kompetensiyaların formalaşmasına bilavasitə zəmin yaratdığı üçün təqdim edilən materiallar ali məktəblərdə pedaqogika ilə bağlı dərslik və dərs vəsaitlərinin hazırlanmasında, metodik tövsiyələrin işlənməsində, gələcək tədqiqatlarda, eləcə də pedaqoji-psixoloji fənlərin tədrisində tələbələrin müstəqil işinin təşkili prosesində istifadə oluna bilər.

**Müdafiəyə təqdim olunan müddəalar:**

1. Ali məktəbdə pedaqoji-psixoloji fənlərin tədrisi prosesində tələbələrin müstəqil işinin təşkili tələbələrin pedaqoji-peşə vəzifələrini müstəqil həll etmək bacarığının formalaşmasının mühüm şərtidir.
2. Ali məktəbdə pedaqoji-psixoloji fənlərin tədrisi prosesində tələbələrin müstəqil işinin təşkili və onun müvafiq formalarının təlim prosesində tətbiqi Avropa şurasının XXI əsr üçün müəyyənləşdirdiyi təlim fəaliyyətində kompüter texnologiyalarından istifadə, tədqiqat aparmaq, müstəqil

düşünmək, komandada iş, tənqidi və yaradıcı təfəkkürün inkişafı, özünütəhsil, özünütəşkil, özünü və digərlərini obyektiv qiymətləndirmə kimi kompetensiyaların formalaşmasında mühüm şərtdir.

3. Ali məktəbdə pedaqoji-psixoloji fənlərin tədrisi prosesində müstəqil işin təşkilində internet şəbəkənin təlim resurslarından olan veb-kvestdən təlim texnologiyalarının bir forması kimi istifadə mühüm rol oynayır.

4. Ali məktəbdə pedaqoji-psixoloji fənlərin tədrisi prosesində tələbələrin müstəqil işinin təşkilində tələbələrin prosesin qurucusu, təşkilatçısı və fəal iştirakçısı olması, müəllim-tələbə münasibətlərinin yeni formalarının tətbiq edilməsi, müəllimin təlim prosesinin müşahidəçisi, tələbənin isə fəal iştirakçısı olması, fəal təlim metodlarının tələbələrin məhsuldar təfəkkürünü inkişaf etdirən, onları peşəyönümlü fəaliyyətə təhrik edən əsas vasitələrdən olması mühüm rol oynayır.

**Tədqiqatın aprobasiyası və nəticələrinin tətbiqi.** Problemlə bağlı Azərbaycan Dillər Universitetinin "Pedaqogika", "Təlimdə innovasiyalar" kafedralarında, Beynəlxalq və Respublika əhəmiyyətli konfranslarda məruzələr edilmiş (9 tezis) və Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda 9 məqalə dərc edilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, 2 fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** problemin aktuallığı əsaslandırılmış, onun işlənmə səviyyəsi, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, fərziyyəsi, metodoloji əsasları, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan müddəalar öz əksini tapmışdır.

Dissertasiyanın I fəsli **"Tələbələrin müstəqil işinin təşkili pedaqoji-psixoloji problem kimi"** adlanır. Bu fəsildə tələbələrin müstəqil işinin təşkili pedaqoji problem kimi nəzərdən keçirilir, tələbələrin müstəqil işinin təşkilinin psixoloji əsasları üzərində dayanılır; tələbələrin müstəqil işinin təşkilinin mahiyyəti, məqsədi və vəzifələri müəyyənləşdirilir; problem baxımından elmi-pedaqoji ədəbiyyatın təhlili aparılır və tələbələrin müstəqil işinin metodoloji əsasları müəyyən edilir:

**Tələbələrin müstəqil işinin metodoloji əsasları**




**Şəkil 1.**

Haqqında danışılan fəsildə müstəqil işin strukturu tərəfimizdən 3 mərhələdən ibarət təsvir edilmişdir:

1. Məlumat-axtarış mərhələsi: bu mərhələdə məlumatın toplanılması, dərk edilməsi, toplanılan məlumatdan lazımi və faydalı olanın seçimi və sistemləşməsi həyata keçir.

2. İcra mərhələsi: bura görüləcək işin məqsəd və vəzifələri, həcminin müəyyənləşməsi, işin mərhələlərə bölünməsi, vaxt bölgüsü, müstəqil işin yerinə yetirilməsi üçün əlavə vasitə və vəsaitlərin seçilməsi və bu prosesdə özünüidarəetmə bacarığının formalaşması aiddir.

3. Refleksiya mərhələsi: təsəvvürlərin doğru və ya səhv olduğunun müəyyənləşməsi, səbəblərin üzə çıxarılması, müstəqil işin bütün mərhələlərini nəzərdən keçirməklə son nəticədə yaradılan məhsulun keyfiyyətinin qiymətləndirilməsi aiddir.

Müstəqil işin strukturunu təsvir edərkən biz B. Blumun 1956-cı ildə hazırladığı pedaqoji məqsədlər və onlara müvafiq fəaliyyət növlərini müəyyən edən taksonomiyasından istifadə etmişik. B. Blum təlim məqsədlərini 6 əsas səviyyə üzrə: bilik, anlama, tətbiqetmə, analiz, sintez və qiymətləndirmə kimi təsnif edərək davranış dəyişiklərinə əsasən onların ətraflı təsvirini vermişdir. Bu taksonomiyaya əsaslanaraq biz müstəqil işin və eyni zamanda onun üçün nəzərdə tutulan tapşırıqların sadədən mürəkkəbə doğru, yəni asan səviyyəli faktların izahından yüksək səviyyəli qiymətləndirməyə kimi mərhələlərini müəyyən etmişik. B. Blumun taksonomiyası tapşırıq növlərini və təlim fəaliyyətinin növlərini müəyyən etməyə imkan yaradır.

**Tələbələrin müstəqil işinin mərhələlərinin B. Blum taksonomiyasının səviyyələri ilə əlaqədələndirilməsi.**




**Şəkil 2.**

Sonda bu fəsildə biz tələbələrin müstəqil işinin tərifini vermişik: "Tələbələrin müstəqil işi bilavasitə müəllimin rəhbərliyi olmadan mövcud biliklərə əsasən yeni biliklərin əldə edilməsi, tənqidi və yaradıcı təfəkkürün inkişafı, təhlil, sintez və qiymətləndirmə kimi idrak əməliyyatlarının yerinə yetirilməsini təmin edən təlim fəaliyyətinin ali formasıdır. Bu zaman təhsil alanlar qarşılarına bu və ya digər məqsəd və vəzifələr qoyur, fəaliyyətlərini planlaşdırır, həyata keçirir və refleksiya edir".

Dissertasiyanın II fəsli **"Pedaqoji-psixoloji fənlərin tədrisi prosesində tələbələrin müstəqil işinin təşkili yolları"** adlanır.

Bu fəsildə tələbələrin müstəqil işinin təşkilində motivasiyanın yaradılması diqqət mərkəzinə gətirilir; pedaqoji-psixoloji fənlərin tədrisi prosesində tələbələrin müstəqil işinin təşkilinə verilən tələblər öz əksini tapır; pedaqoji-psixoloji fənlərin tədrisi prosesində tələbələrin müstəqil işinin təşkilində İKT-nin rolu; pedaqoji-psixoloji fənlərin tədrisi prosesində tələbələrin müstəqil işinin təşkilinin səmərəli yolları müəyyənləşdirilir. Eksperimentin təşkili, aparılması və nəticələri də II fəsildə verilmişdir.

Fəsildə tələbələrin müstəqil işinin təşkilində motivasiyanın yaranmasına imkan verən amillər müəyyən edilmişdir. Onlara:

-müəllim-tələbə münasibətlərinin dialoq şəraitində, əməkdaşlıq münasibətləri əsasında qurulması, təlimdə psixoloji komfort şəraitinin yaranması;

-fəal təlim metodları, müasir pedaqoji texnologiyalardan istifadə;

-təlimin müxtəlif təşkili formalarından istifadə;

-müstəqil işin qiymətləndirmə prosesində tələbələrin iştirakının təmin

olunması;

-müstəqil işin müəllim nəzarəti altında həyata keçirilməsi;

-tapşırıqların tələbələrin səviyyəsinə, maraq, meyl və tələbatına uyğun, eyni zamanda həyatla əlaqəli olması, gələcək peşə fəaliyyətinə istiqamətlənməsi, yaradıcı təfəkkürün inkişafını və İKT-dən istifadəni təmin etməsi aiddir.

Bu fəsildə pedaqoji-psixoloji fənlərin tədrisi prosesində tələbələrin müstəqil işinin təşkilinə verilən tələblər öz əksini tapmışdır ki, həmin tələblərə aşağıdakılar daxildir:

1. Müstəqil iş məqsədyönlü xarakter daşımalı, məqsədi dəqiq və aydın müəyyənləşməlidir.

2. Auditoriyadankənar təşkil olunan müstəqil iş məzmun baxımından auditoriya məşğələlərinin məzmunu ilə əlaqəli olmalı və praktik məşğələlərdə əldə olunan bilikləri genişləndirməlidir.

3. Daim əks əlaqə yaranmalıdır.

4. Qiymətləndirmə prosesində şəffaflıq prinsipinə əməl olunmalı, müstəqil işə başlamazdan əvvəl diaqnostik qiymətləndirmə aparılmalı, işin sonunda isə tapşırıqlar qiymətləndirilməli və nəticələr tələbələrə elan olunmalıdır.

Müstəqil işin səmərəsi təlim prosesinin iştirakçılarından, onların yeniliklərə, inkişafa hazır olmasından asılıdır. Hazırda dünya təcrübəsində müəllimə onun davranışının müxtəlif xüsusiyyətlərini əks etdirən təriflər verilir: müəllim-köməkçi (helper), təlim prosesini "asanlaşdıran" müəllim (fasilitator), müəllim-məsləhətçi (counsellor, adviser), müəllim-koordinator (coordinator), müəllim-mentor (mentor), müəllim-tütor (tutor), müəllim-kouç (coach) və s. Biz tədqiqat işimizdə hər bir yanaşmanı müstəqil işlə, onun səmərəsinə təsiri ilə ətraflı əlaqələndirib təhlil etmişik.

Bununla yanaşı biz skaffoldinq strategiyasını da tələbələrin müstəqil işinin təşkili ilə əlaqələndirmişik. "Skaffoldinqın" əsas göstəricisi müəllim tərəfindən "sönən köməkdir", yəni tələbə müəyyən səviyyəyə çatdıqda, tapşırığın yerinə yetirilməsində tam müstəqil olur və ona olan kömək yox səviyyəsinə enir. "Sönən kömək" (fading help) ingilis dilindən tərcümədə müvəqqəti dirək mənası daşıyır. Belə kömək müəllimin müdaxiləsini yalnız tələbə tapşırığın öhdəsindən tamamilə gələ bilmədikdə nəzərdə tutur. Müəllim tələbələri təlim fəaliyyətinə cəlb edərkən onlara nəzarət edir, məlumatlandırır, dəstəkləyir, onların üstün və çatışmayan cəhətlərini qeyd edir və hər bir tələbəyə fərdi yanaşma tətbiq edir.

Son illər İnternet şəbəkənin və ümumiyyətlə, İKT sahəsinin surətli inkişafı izlənilsə də, hələ də biz təhsil sahəsində inkişaf etmiş dövlətlər

səviyyəsinə çata bilməmişik. Kompüterdən istifadə, internetdən məlumat axtarışı təhsildə geniş imkanlar yaratsa da, onların vasitəsi ilə keyfiyyətli məlumat axtarışı hələ də lazımi səviyyədə deyildir. Müasir mütəxəssis hazırlığı pedaqoji fənlərin tədrisi ilə yanaşı İKT-yə əsaslanan peşə fəaliyyətinə zəmin yaratmalıdır. Bununla əlaqədar II fəsildə biz tələbələrin müstəqil işində istifadə oluna bilən internetin təlim-resurslarını müəyyən edib, onları ətraflı təsvir etmişik: Hotlist (Hotlist), Multimedia Skrepbuk (Multimedia Scrapbook, Treja Xant (Treasure Hunt), Sabcekt Sempl (Subjekt Sampler), Veb-kvest (Web-quest).

Veb-kvest (Web-quest) – internet şəbəkəsinin resurslarından istifadə etməklə müxtəlif mövzulara dair tələbələrin layihə fəaliyyətinin təşkilinin ssenarisidir. Bura qeyd etdiyimiz internet təlim resurslarının hər bir 4 komponenti daxildir.

Veb-kvestin müəllifi və yaradıcısı Berni Dodc onu tədqiqat fəaliyyətinin xüsusi təşkil edilmiş bir növü kimi qeyd etmişdir. Onun yerinə yetirilməsi üçün tələbələr müəllimin verdiyi internet şəbəkənin istinadlarına əsasən axtarış həyata keçirirlər[1]. Veb–kvesti təlim texnologiyaları, tələbələrinin müstəqil işinin innovativ vasitəsi və ya tələbələrinin müstəqil işinin innovativ növü kimi adlandıranlar da var. Lakin Veb-kvestdən istifadə təsadüfi xarakter daşımamalıdır, çünki yalnız pedaqoji fənlərin tədris proqramlarında yer aldıqda, təlim prosesinin tərkib hissəsinə çevrildikdə o həqiqi nəticə verə bilər.

Hər bir fəaliyyətdə olduğu kimi, bizim tədqiqatın gedişində də tələbələrin müstəqil işləməyə hazır olmaları, müəllimin bu prosesdə köməyi, müstəqil işin növləri, məlumat mənbələri, səmərəli həyata keçməsinə mane olan amillər və s. məsələlərə diqqət yetirilmişdir. Eksperimentin aparılması hazırlıq işləri ilə başlandı. İlk növbədə pedaqoji-psixoloji fənlərin tədrisi prosesində tələbələrin müstəqil işində olan çatışmazlıqları üzə çıxarmaq üçün müəyyənedici eksperiment aparıldı. Eksperimentimizin əsas məqsədi pedaqoji ali məktəb tələbələrinin müstəqil işə, onun təşkili ilə bağlı əsas problemlərə münasibəti müəyyən etmək idi. Müəyyənedici eksperiment 2013-2014-cü illərdə Azərbaycan Dillər Universitetində, Azərbaycan Dövlət Pedaqoji Universitetində və Azərbaycan Müəllimlər İnstitutunun Gəncə filialında keçirilmişdir. Eksperimentdə 140 nəfər tələbə iştirak etmişdir. Onlardan 40 nəfər 1-ci

---

[1] March T. The 3 Rs of Web-Quests. Multimedia Schools Magazine, №. 72, WebQuests". Multimedia Schools, p. 62-63.

kurs, 30-II kurs, 35-II-kurs və 35 nəfər isə IV kurs tələbəsi olmuşdur.

Pedaqoji universitetlərdə tələbələrin müstəqil işinin təşkili problemini araşdırmaq məqsədilə biz anket sorğusundan istifadə etmişik. Anketdə qoyulan suallardan biri "Təlim prosesinin birgə yaradıcılıq və idarəolunan proses olması və bu prosesin müəllim və tələbə arasında dialoq şəklində həyata keçməsi anlamı ilə razısınızmı?" Müəllim və tələbələrin cavabları cədvəl № 1 əks olunmuşdur.

**"Təlim prosesinin müəllim və tələbə arasında yaradıcı və birgə idarəolunan proses olması və bu prosesin dialoq şəklində həyata keçməsi anlamı ilə razısınızmı?"**

**Cədvəl 1.**

| Respondentlər | Bəli | Xeyr | Bilmirəm |
|---|---|---|---|
| Tələbələr | 68,17% | 19,29% | 12,54% |
| Müəllimlər | 78,6% | 20,4% | 1% |

Tələbələrin 68,17%-i və müəllimlərin 78,6%-i yəni böyük əksəriyyəti təlim prosesinin müəllim və tələbə arasında yaradıcılıq və birgə idarəolunan proses olması və bu prosesin dialoq şəklində həyata keçməsi anlamı ilə razıdırlar, lakin 12,54 % tələbə bu haqda heç bir vaxt fikirləşməmişdır, yəni təlimin nəticələri barədə heç düşünmürlər və məsuliyyəti müəllimin 1% üzərinə qoyurlar.

"Necə düşünürsünüz: müəllim və tələbələr təlimdə dialoqa və birlikdə təşkil olunmuş yaradıcı fəaliyyətə hazırdırlarmı? " aşağıdakı (cədvəl 2) kimi cavab vermişlər:

**"Necə düşünürsünüz: müəllim və tələbələr təlimdə dialoqa və birlikdə təşkil olunmuş yaradıcı fəaliyyətə hazırdırlarmı? "**

**Cədvəl 2.**

| Respondentlər | Bəli | Xeyr | Bəzən | Bilmirəm |
|---|---|---|---|---|
| Tələbələr | 39,54% | 5,1% | 26,77% | 28,59% |
| Müəllimlər | 43% | 18% | 35% | 4% |

Buradan belə bir nəticə çıxarmaq olar ki, təlimdə birlikdə təşkil olunmuş yaradıcı və idarəolunan fəaliyyətə və dialoqa 43% müəllim, 39,54% tələbə inanır. Lakin buna tələbələrin hələ hazır olmasına inanmayan 18% və bəzən hazır olduğunu qeyd edən 35% faiz etibarı ilə çoxluğu yenə də müəllimlər təşkil edir. 28,59% tələbə bu sualı "bilmirəm" deyə cavablandırıblar. Bu da onu sübut edir ki, tələbələr təlim prosesində bütün məsuliyyəti müəllimlərin üzərinə qoyur və bu işdə öz vəzifələrini lazımınca dərk edib dəyərləndirmirlər.

Deməli, təlim prosesini dialoq və birlikdə təşkil olunmuş yaradıcı və idarəolunan fəaliyyət kimi 78,6% müəllim və 68,17% tələbə, yəni əksəriyyət qəbul edir, lakin onların bu qarşılıqlı fəaliyyətə hazır olmalarına şübhə ilə yanaşan tələbələr 60,46% (bəli, xeyr, bilmirəm cavabların cəmi) və müəllimlər 57% daha çoxdur (cədvəl 1), nəinki buna əmin olanları– 39,54% tələbə, 43% müəllim (cədvəl 2).

**Tələbələrin müstəqil işinin ən çox istifadə olunan növləri**

**Cədvəl 3.**

| Cavablar | Müəllimlər | Tələbələr |
|---|---|---|
| | "Müstəqil işin hansı növlərini siz daha çox istifadə edirsiniz?" | "Müstəqil işin hansı növü sizə daha çox təklif olunur?" |
| -kitab üzərində iş | 25,1% | 26,52% |
| -tapşırıqların yerinə yetirilməsi | 18,2% | 35,9% |
| -testlərin yerinə yetirilməsi | 28,3% | 20,7% |
| -esse yazmaq | 12% | 2,78% |
| -layihə işləmək | 6,4% | 4,9% |
| -tədqiqat işi | 8,2% | 3,2% |
| -təlim simulyasiyaları | 0% | 0% |
| - veb-kvestlər | 0% | 0% |
| -(sizin variantınız) | 1,8% - Xülasə və rəylərin yazılması | 6%– Mühazirələrin oxunması, məlumat axtarışı, İnternet şəbəkədə iş |

Bu cədvəldən belə qənaətə gəlmək olar ki, informasiya-kommunikasiya texnologiyalarının bütün sahələrdə əhəmiyyəti və rolu artdıqca hələ də müəllimlər tələbələrin müstəqil işində ənənəvi formalardan daha çox istifadə edirlər, veb-kvest haqqında isə heç məlumatları belə yoxdur (0% - 0%). Müstəqil işin bu növlərindən nəinki istifadə edilmir, onlar haqda heç təsəvvür belə yoxdur.

"Fikrinizcə, tələbələrin müstəqil işinin uğurlu təşkili üçün nə çatışmır?" sualına alınan cavablar aşağıdakı cədvəldə verilmişdir.

**Tələbələrin müstəqil işinin uğurlu təşkili üçün çatışmayan cəhətlər**

**Cədvəl 4.**

| Sual | Cavablar |
|---|---|
| Müasir və qabaqcıl təcrübə | 6,5%, |
| Texniki vasitələr | 34,6% |
| Müstəqil işin müasir növləri haqqında məlumat | 28,9%, |
| Elektron təlim proqramları | 18,2% |
| Stimul | 11, 8% |

Cədvəldən aydın olur ki, tələbələrin müstəqil işinin uğurlu təşkili üçün müəllimlərin 6,5%-i müasir və qabaqcıl təcrübənin, 34,6%-i texniki vasitələrin, 28,9%-i müstəqil işin müasir növləri haqqında məlumatın, 18,2%-i yeni elektron təlim proqramlarının, 11, 8%-i isə stimulun olmamasını qeyd edirlər.

Yuxarıda qeyd olunanlara əsasən müəllim və tələbələr müstəqil işin təşkili prosesində qarşılıqlı əlaqə, birgə yaradıcılıq fəaliyyətinə hazırlığı yüksək qiymətləndirdiklərini göstərmişlər. Təlim prosesinin, o cümlədən tələbələrin müstəqil işinin birgə idarəolunması, birgə təşkili fəaliyyətin məqsədyönlü olmasına, bu və ya digər məsələlərin həllinə imkan yaradır, məsuliyyət hissini artırır. Bu zaman müəllimin üzərinə düşən vəzifə tələbələrin özünütəşkil prosesini düzgün istiqamətləndirib, onların təlim məqsədlərinə nail olmasını təmin etməkdir. Bunun üçün müəllimlər də, tələbələrin müstəqil işinin təşkili prosesində müəllim köməyinin vacib olmasını anlayır, lakin bu kömək prosesi müşayiət edən, tədricən azalan müvafiq ehtiyac zamanı göstərilən, tədricən "sönən" olmalıdır.

Tələbələr müstəqil işi yerinə yetirərkən ənənəvi kitab və ya bu kimi çap ədəbiyyatı ilə yanaşı İKT ilə işləmək bacarığına malik olmalı, müxtəlif vəziyyətlərdə qərar qəbul etməli, tez-tez dəyişən həyat şəraitinə uyğunlaşmalı, istənilən mühitdə fəaliyyət göstərə bilməlidirlər.

Anket sorğusu vasitəsilə əldə etdiyimiz məlumatların təhlili bizə eksperimentin növbəti öyrədici mərhələsinə keçmək imkanı verdi. Eksperimental və kontrol qruplar müəyyənləşdirildi. Eksperimentə cəlb olunmuş müəllimlərin (istər eksperimental, istərsə də kontrol), qrupların və tələbələrin bərabər səviyyəli olmaları təmin edildi. Müəllimlərin iş stajında əsaslı fərqin olmamasına da fikir verildi. Eksperimental qruplarda məqsədyönlü, fasiləsiz, mütəşəkkil və sistemli işlər təşkil olunur, zəruri hallarda bu qrupların müəllimləri ilə məsləhətləşmələr aparılırdı.

Göstərdiyimiz kömək eksperimental qrup tələbələrində tələbələrin müstəqil işinin təşkilində İnternet şəbəkənin imkanlarından istifadəyə, veb-kvestlə işləmək təcrübəsi qazanmalarına istiqamətlənirdi. İşin səmərəli keçməsi üçün müntəzəm şəkildə məsləhətlər keçirilirdi. Tədqiqatımızda tələbələrin müstəqil işinin veb-kvestlə təşkili aşağıdakı mərhələlər üzrə təklif olunur:

- diaqnostika mərhələsi: bu mərhələdə tələbələrin informasiya-kommunikasiya texnologiyaları ilə işləmək, qrupda ünsiyyət qurmaq, müxtəlif web-brauzerlərdə məlumat axtarışı, emalı, təhlil aparmaq və s. veb-kvestlə işləmək üçün lazımi kompetensiyaların olmasını müəyyən etmək;
- müstəqil işin məqsədinin müəyyən etmək;
- müstəqil iş üçün müvafiq şərait müəyyən etmək (yer, vaxt, resurs, vəsait);
- müstəqil işin yerinə yetirilməsi prosesində pedaqoji vəzifələri müəyyən etmək;
- təlim vəzifələrinin yerinə yetirilməsi məqsədilə veb-kvest üçün tapşırıqlar hazırlamaq;
- müstəqil işin təşkilində təlim prosesinin iştirakçılarının qarşılıqlı əlaqə növünü seçmək (fərdi, cütlər, qrup);
- müstəqil işin səmərəli yerinə yetirilməsi üçün təlimat tərtibi, hər tələbə üçün rol və vəzifəni müəyyən etmək;
- veb-kvestin hər mərhələsi və ümumilikdə bütün veb-kvest üçün nəticələr müəyyən etmək;
- veb-kvestlə həyata keçən müstəqil işə nəzarəti təşkil etmək.

Müstəqil işin veb-kvestlə yerinə yetirilməsi prosesində əsas pedaqoji vəzifələr həyata keçirilir və bu vəzifələr müasir mütəxəssisdə əsas kompetensiyaların formalaşmasına imkan yaradır. Yuxarıda tələbələrin müstəqil işinin 5 mərhələsini qeyd etmişik. Onların hər biri müvafiq təlim məqsəd və vəzifələrinin həllinə yönəlmişdir.

Tələbələrin müstəqil işinin veb-kvestlə 1-ci mərhələsində tələbə İKT-nin imkanlarından istifadə edərək şəxsiyyətyönümlü təlim vəzifələrinin təşkilinə qadir olmalı, On-line təhsilin xüsusiyyətlərini bilməlidir;

Tələbələrin müstəqil işinin veb-kvestlə 2-ci mərhələsində interaktiv təlim, onun xüsusiyyətləri və imkanları haqqında məlumata malik olmalıdır;

Tələbələrin müstəqil işinin veb-kvestlə 3 mərhələsində tələbə təlim prosesinin kompüter vasitəsilə həyata keçirilməsini, təlim vəzifələrinin yerinə yetirilməsində bütün təlim iştirakçıları ilə müstəqil şəkildə əlaqə qura bilməlidir;

Tələbələrin müstəqil işinin veb-kvestlə 4 mərhələsində tələbə təlim simulyasiyalarının xüsusiyyətlərini bilməli, onların nəticəyönümlü təhsildə əhəmiyyətini izah etməli, pedaqoji vəzifələrin həllində İnternetdə interaktiv təlim mühitinin yaradılmasını təmin etməlidir;

Tələbələrin müstəqil işinin veb-kvestlə 5 mərhələsində tələbə müasir informasiya cəmiyyətinin daim təhsil almağa, yeni biliklər əldə etməyə, ömür boyu oxumağa olan tələbatını bilməli, interaktiv təlim texnologiyalarının informasiya əsrində insanın fasiləsiz təhsilində rolunu izah etməlidir, interaktiv təlim texnologiyalarının imkanlarından özünütəhsildə və pedaqoji vəzifələrin yerinə yetirilməsində istifadə etməyi bacarmalıdır. Tələbələrin müstəqil işinin veb-kvestlə yerinə yetirilməsində hər kəsin üzərinə düşən həcm, vaxt, eləcə də təlimin təşkili forması tələbələrin müstəqillik səviyyəsindən asılı olaraq müəllim tərəfindən müəyyənləşir.

Veb-kvestlə yerinə yetirilən tələbələrin müstəqil işinin nəticəsi, yəni tələbələrin müstəqil şəkildə təlimin peşə-pedaqoji vəzifələrini həll etmələri onların tapşırıqları tam şəkildə yerinə yetirmələrində əks olunmuşdur. Biz tapşırıqları yerinə yetirmə səviyyəsinə görə 3 hissəyə ayırmışıq: tapşırıq tam yerinə yetirilib, tapşırığın yarı həcmi yerinə yetirilib, tapşırıq qismən yerinə yetirilib. Əldə edilən nəticələr aşağıdakı cədvəldə əks olunmuşdur.

**Veb-kvestlə tapşırıqların yerinə yetirilməsi səviyyəsi**

**Cədvəl 5.**

| | I mərhələ | | II mərhələ | | III mərhələ | |
|---|---|---|---|---|---|---|
| Tapşırığın yerinə yetirilmə səviyyəsi | Eks | Kont | Eks | Kont | Eks | Kont |
| Tapşırıq tam yerinə yetirilib (yüksək səviyyədə) | 4 (20%) | 1 (5%) | 8 (40%) | 3 (15%) | 10 (50%) | 4 (20%) |
| Tapşırığın yarı həcmi yerinə yetirilib (orta səviyyədə) | 9 (45%) | 11 (55%) | 7 (35%) | 10 (50%) | 8 (40%) | 15 (75%) |
| Tapşırıq qismən yerinə yetirilib (aşağı səviyyədə) | 7 (35%) | 8 (40%) | 5 (25%) | 7 (35%) | 2 (10%) | 1 (5%) |

Əldə olunan nəticələr tapşırığın tam və ya yarı hissəsini yerinə yetirən tələbələrin sayında müsbət inkişaf dinamikası, öhdəsindən  qismən gələn tələbələrin sayının isə azalmasını nümayiş etdirir.

**Tələbələrinin müstəqil işinin  veb-kvestlə tam və ya qismən yerinə yetirilməsinin artma və öhdəsindən qismən gələnlərin azalma dinamikası**




**Şəkil 3.**

Beləliklə, eksperimentin təhlili belə bir nəticə çıxarmağa imkan verir ki, tələbələrin müstəqil işinin təşkili prosesində təklif etdiyimiz metodika pedaqoji-psixoloji fənlərin tədrisi prosesində  öz səmərəsini vermişdir. Belə ki, nəticələrin aprobasiyası zamanı müəllim köməyinə ehtiyac tədricən azalmış, tələbələrin müstəqil işləməyə dair özünüqiymətləndirmələri və müstəqil işin tapşırığını veb-kvestlə  yerinə yetirən tələbələrin sayı artmışdır. Bu isə bizim təcrübə-eksperimental işimizin səmərəliliyini və fərziyyəmizin doğruluğunu təsdiq edir.

Dissertasiya işində əldə edilmiş elmi **nəticələr** aşağıdakı kimi ümumiləşdirilmişdir:

1.Tələbələrin müstəqil işi problem kimi təhlil edilmiş, məlum olmuşdur ki, bu problem hələ də açıq olaraq qalır. Bununla yanaşı "Müstəqil iş " anlamının müxtəlif müəlliflər tərəfindən verilmiş tərifi nəzərdən keçirilmiş, Azərbaycan, rus, xarici pedaqoji-psixoloji ədəbiyyat təhlil edilərək tələbələrin müstəqil işinin mahiyyəti pedaqoji-psixoloji fənlərin tədrisi prosesində müqayisəli şəkildə təhlil olunmuşdur. Bunun əsasında onun tərifi  belə verilmişdir: tələbələrin müstəqil işi bilavasitə müəllimin rəhbərliyi olmadan mövcud biliklərə əsasən yeni biliklərin əldə edilməsi, tənqidi və yaradıcı təfəkkürün inkişafı, təhlil, sintez və fəaliyyətin qiymətləndirilməsi kimi idrak əməliyyatlarının yerinə yetirilməsini təmin

edən təlim fəaliyyətinin ali formasıdır. Bu zaman təhsil alanlar qarşılarına bu və ya digər məqsəd və vəzifə qoyur, fəaliyyətlərini planlaşdırır, həyata keçirir və refleksiya edir.

2. Tələbələrin müstəqil işi əvvəlcədən düşünülmüş və hərtərəfli hazırlanıb təşkil olunmuş işdir, o, yaradıcı fəallığı, məntiqi, tənqidi, yaradıcı təfəkkürü inkişaf etdirir, müstəqil öyrənmək və işləmək, məqsəd qoyub ona doğru irəliləmək və s. vəzifələri həyata keçirir və bu iş nəinki biliklərin mənimsənilməsini, eləcə də onların əldə edilməsini təmin edir. Təhsilin paradiqmasının dəyişməsi, təlim prosesinə və xüsusilə tələbələrin müstəqil işinin təşkilinə müasir və aktual tələblərin verilməsi, zamanın tələblərinə cavab verən təlimin təşkili formalarının tətbiqini zəruri edir.

3. Müstəqil iş dərk etmə fəaliyyətinin xüsusi növüdür, onun yerinə yetirilmə prosesində hər bir fərd üçün optimal olan məlumat emalı həyata keçirilir, onun şəxsi təcrübəsi digərlərinin təcrübəsi ilə birləşir. Müstəqil işin əsaslı və düşünülmüş təşkili tələbələrdə yaradıcı fəaliyyəti, müşahidəçilik qabiliyyətini, məntiqi təfəkkürü inkişaf etdirir, müstəqil çalışmaq, qarşıya qoyulmuş məqsədə səmərəli nail olmaq imkanı yaradır, əqli və fiziki çalışma qabiliyyətini formalaşdırır. Təlimin bu növü gələcək mütəxəssisin potensial imkanlarının inkişafında, yaradıcı qabiliyyətlərinin formalaşmasında mühüm rol oynayır. Bununla yanaşı, müstəqil iş nəinki tələbələrin bilikləri mənimsəmələrini, eləcə də onları müstəqil əldə etmək bacarıqlarının formalaşmasını təmin edir.

4. Tələbələrin müstəqil işinin təşkili prosesində şəxsiyyətyönümlü, diferensial, sistemli və kompetensiyalara əsaslanan yanaşma işin metodoloji əsasını təşkil edir.

5.Tələbələrin müstəqil işi öz strukturuna malik bir sistemdir. Bu struktur üç mərhələdən ibarət təsvir olunub: məlumat-axtarış, icra və refleksiya mərhələləri. Tələbələrin müstəqil işinin strukturu B. Blumun təksonomiyasının səviyyələri ilə əlaqəli təşkil olunmalıdır.

6. Tələbələrin müstəqil işini təşkil edərkən müəllim hər bir tələbənin fərdi xüsusiyyətlərini nəzərə almalıdır. Tələbələrin müstəqil işinin təşkilinin psixoloji əsasları uğurlu təlim üçün müəllimin peşə fəaliyyətində pedaqoji-psixoloji şəraitin yaradılmasını, tələbənin peşəkar şəxsiyyət kimi tərbiyə edilməsini nəzərdə tutur və onların şəxsiyyətyönümlü və peşəkar inkişafına yönələn gələcək fəaliyyətinin inkişafını təmin edir.

7. Şəxsiyyətin motivasiya sahəsi onun hər bir fəalliyyətinin uğurudur. Hər hansı bir fəaliyyətə dair insanın motivasiyasının səviyyəsi müxtəlifdir. Təlim fəaliyyətinin motivasiyası tələbələrin fərdi xüsusiy-

yətlərindən, qrupun inkişaf səviyyəsindən, pedaqoji-psixoloji fənlərin tədrisindən, fənni tədris edən müəllimdən, müstəqil işin tapşırıqlarından, onun həyata keçirilmə formalarından və s. asılıdır.

8. Tapşırıqlar gələcək peşə fəaliyyətinə istiqamətlənməli, yaradıcı təfəkkürün inkişafını və İKT-dən istifadəni təmin etməlidir.

9. Müstəqil iş məqsədyönlü xarakter daşımalı və məqsədi dəqiq və aydın müəyyənləşməlidir. Işin belə təşkili onun məzmunun dərk edilməsini və qarşıya qoyulan məqsədlərə nail olunmasını təmin edir.

10. Müstəqil iş həqiqətən müstəqil olmalı və tələbəni gərgin əməyə sövq etməlidir. Müstəqil iş üçün tapşırıq yaradıcı olmalı, yerinə yetirilməsi hazır şablon və ya reseptlərə əsaslanmamalı, yeni bilik, təcrübənin, qazanılmasına və müxtəlif vəziyyətlərdə fəaliyyət göstərməyə hazırlamalıdır. Tələbələrin müstəqil işində daim əks əlaqə yaradılmalıdır. Qiymətləndirmədə şəffaflıq prinsipinə əməl olunmalı, istər müstəqil işə başlamazdan əvvəl, istərsə də sonunda tapşırıqlar qiymətləndirilməli və nəticələr tələbələrə elan olunmalıdır.

11. Müasir dövrün tələblərinə əsasən müstəqil işin təşkilində tələbələr prosesin qurucusu, təşkilatçısı və fəal iştirakçısı olmalıdır. Bunun üçün müəllim-tələbə münasibətlərinin yeni formaları tətbiq edilməli, müəllim təlim prosesinin müşahidəçisi, tələbə isə fəal iştirakçısı olmalıdır. Fəal təlim metodları tələbələrin məhsuldar təfəkkürünü inkişaf etdirən, onların yaradıcı tətbiqetməsinə, yüksək səviyyəli peşəkara xas keyfiyyətlərin formalaşmasına şərait yaratdığı üçün, tələbələrin müstəqil işinin səmərəsini artıran ən effektiv metodlar kimi tövsiyə olunur.

12. Müasir ali məktəb müəllimi ilk növbədə özü müasir texnologiyalardan istifadə qaydalarına yiyələnməli, onun mahiyyətini dərk etməli və tələbə ilə fəaliyyətini məhz İKT üzərində qurmalıdır. Müstəqil işin təşkili və yerinə yetirilməsi prosesində, tapşırıqların hazırlanmasında elektron təlim proqramlarından, rəqəmsal təlim resurslarından istifadə edilməlidir.

13. Tələbələrin müstəqil işinin təşkilində internet şəbəkənin təlim resurslarından olan veb-kvestdən təlim texnologiyalarının bir forması kimi istifadə olunmalıdır. Veb –kvestlə tələbələrin müstəqil işinin təşkilinin diaqnostikadan qiymətləndirməyə kimi bütün mərhələləri müəllim tərəfindən ətraflı təsvir edilməlidir. Eyni zamanda veb-kvestin son nəticəsi də əvvəlcədən müəyyən olunmalıdır. Veb-kvestin hər mərhələsinə nəzarət təmin edilməlidir.

14. Pedaqoji-psixoloji fənlərin tədrisi prosesində tələbələrin müstəqil işinin təşkili və onun müvafiq formalarının təlim prosesində

tətbiqi Avropa Şurasının XXI əsr üçün müəyyənləşdirdiyi təlim fəaliyyətində kompüter texnologiyalarından istifadə, elmi-tədqiqat aparmaq, mövcud problemin bir neçə mümkün həlli yolunu müəyyənləşdirmək, müstəqil düşünmək, komandada iş, müvafiq qərarların qəbulu, tənqidi və yaradıcı təfəkkürün inkişafı, özünütəhsil, özünütəşkil, özünü və digərlərini obyektiv qiymətləndirmə kimi kompetensiyaların formalaşmasında mühüm rol oynayır. Bütün bu kompetensiyalar tələbələrin müstəqil işinin yerinə yetirilməsi zamanı formalaşır və onların mövcudluğu müxtəlif, fasiləsiz peşə hazırlığı və təkmilləşmədə, problemlərin həllində, tolerantlıq, empatiya və digər keyfiyyətlərin formalaşmasında mühüm rol oynayır.

Dissertasiyanın əsas müddəaları müəllifin çap olunmuş aşağıdakı **əsərlərində ö**z əksini tapmışdır:

1. İKT və tələbələrin müstəqil işlərinin təşkili // Azərbaycan Dillər Universiteti. Dil və ədəbiyyat, №1, 2013, s.230-236
2. Müstəqil işlərin təşkili prosesində motivasiyanın yaradılma yolları / Azərbaycan Dillər Universiteti, Elmi xəbərlər, 2013, №2, s.44-48
3. İKT-dən istifadə etməklə tələbələrin müstəqil işlərinin təşkili / Ümummilli lider H.Ə. Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş “Xarici dillərin tədrisinin aktual problemləri”. Beynəlxalq elmi-praktiki konfrans, Bakı 6-7 may 2013, s.44-48
4. Tələbələrin müstəqil işlərinin təşkilində müasir informasiya-kommunikasiya texnologiyalarının rolu / Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi Əsərlər, 2013, №1, s.44-48
5. İbtidai sinif müəllimliyi ixtisasında təhsil alan tələbələrin müəllim kimi formalaşmasında müstəqil işin rolu / Ümummilli lider H.Ə. Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş “Müəllim hazırlama siyasəti və problemləri”. Beynəlxalq simpozium, Bakı, 3-4 may, 2013, s.142-143
6. Tələbələrin müstəqil işlərinin təşkili zamanı ulu öndər Heydər Əliyevin irsindən istifadə / Ümummilli lider H.Ə. Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş “Müasir təhsilin aktual problemləri”. Respublika elmi-praktik konfrans, Bakı, 6 may, 2013, s.156-157
7. Tələbələrin pedaqoji-psixoloji fənlər üzrə müstəqil işlərinin təşkilində motivasiyanın yaradılması / Ümummilli lider H.Ə. Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş “Müasir təlim metodları və yeni pedaqoji texnologiyaların təlim-tərbiyə prosesində tətbiqi”. Respublika konfransı. Naxçıvan, 3 may 2013, s.90-93

8. Tələbələrin müstəqil işlərinin səmərəli təşkilinə təsir göstərən amillər / Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi Əsərlər, №2, 2013, s.130-132
9. Tələbələrin müstəqil işinə verilən pedaqoji tələblər / Pedaqoji Universitet Xəbərləri, Bakı, 2013, №2, s.336-338
10. Tələbələrin müstəqil işlərinin təşkilinin elmi ədəbiyyatda qoyuluşu / Tədris prosesinin təkmilləşdirilməsinin pedaqoji-psixoloji problemləri. Beynəlxalq elmi konfrans. Naxçıvan, 6 dekabr 2013, s.76-77
11. Veb-kvest tələbələrin müstəqil işinin təşkili forması kimi / Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika elmi konfransı, Bakı, 19-20 dekabr, s.424-427
12. Tələbələrin müstəqil işinin MOODLE sistemində təşkili / "Xarici dillərin tədrisinin aktual problemləri", Respublika elmi-praktiki konfrans, ADU, Bakı 7-8 may 2014, s.427-429
13. Tələbələrin müstəqil işinin fəal təlimlə təşkili / ADU, Elmi xəbərlər, Bakı, 2014, № 2, s.287-292
14. Компетентностный подход в организации самостоятельной работы студентов (Competence-based approach to the organization of students' individual Works) / European Applied Sciences, 2014, №4, Stuttgart, Germany, ORT Publishing, s.33-35.
15. Tələbələrin müstəqil işinin psixoloji əsasları / Bakı Qızlar Universitetinin Elmi əsərləri, Bakı, 2014, № 2, s.201-205
16. Выбор стратегии взаимодействия педагога и студентов как фактор, влияющий на эффективность самостоятельной работы / Вестник Академии Педагогических Наук Казахстана, Алматы, 2014, № 5, с.42-46
17. Tələbələrin müstəqil işinin skaffoldinq strategiyası vasitəsi ilə təşkili. "XXI əsr mədəni paradiqması multimədəni aspektdə", Respublika elmi-praktik konfransın materialları, Bakı, 25-26 noyabr 2014-cü il, s. 214-216

**Нигяр Эльдар гызы Зейналова**

# ОРГАНИЗАЦИЯ САМОСТОЯТЕЛЬНОЙ РАБОТЫ СТУДЕНТОВ ПРИ ОБУЧЕНИИ ПЕДАГОГИКО-ПСИХОЛОГИЧЕСКИХ ДИСЦИПЛИН

**Резюме**

Данная диссертационная работа, состоящая из введения, двух глав, заключения, приложения и списка использованной литературы посвящена проблеме организации самостоятельной работы студентов при обучении педагогико-психологических дисциплин.

Во введении обосновываются актуальность и новизна темы, определяются цели и задачи, стоящие перед данной диссертацией, формируются основные положения, выносимые на защиту, освещаются объект исследования, его теоретическая и практическая значимость. Здесь же определяются методы исследования, а также даются сведения о диссертации, апробации исследования и его структуре. Первая глава называется «Организация самостоятельной работы студентов как педагогико-психологическая проблема». В главе рассматриваются психологические основы, суть, цель и задачи организации самостоятельной работы, проводится анализ научно-педагогической литературы по проблеме. В качестве методологической основы самостоятельной работы студентов предлагается личностно-ориентированный, системный, дифференциальный и компетентностный подход. Выделяются 3 этапа в организации самостоятельной работы: информационно-поисковый, процессуальный и рефлексивный. Проводится аналогия каждого этапа с таксономией Б. Блума. Также в этой главе дается определение самостоятельной работы.

Вторая глава диссертации «Пути организации самостоятельной работы студентов при обучении педагогико-психологическим дисциплинам» посвящена созданию мотивации, освещаются требования, предъявляемые к организации самостоятельной работы, роль информационно-коммуникационных технологий, эффективные пути организации самостоятельной работы. Здесь же характеризуются этапы, задачи, содержание опытно-экспериментальной работы и анализируются результаты проведенного исследования. Представлена стратегия скаффолдинга при организации самостоятельной работы с веб-квестом.

В заключении излагаются основные итоги исследования, формулируются основные выводы, отмечается перспектива дальнейшего использования полученных результатов.

**Nigar Eldar Zeynalova**

## Organization of independent work of students at training of pedagogical and psychological disciplines


### Summary

Dissertation is devoted to the organization of independent work of students in teaching of pedagogical and psychological disciplines. It consists of an introduction, two chapters, conclusion, appendix and list of the used literature.

The introduction substantiates the novelty of the problem, states the object,
subject, purpose, hypothesis, objectives, methodological bases, defines scientific and practical significance of thesis, factual material of dissertation and methods of investigation, scientific propositions for the defense.

The first chapter is called "Organization of independent work of students as a pedagogical-psychological problem." The chapter deals with the psychological basis, the essence, the purpose and objectives of the organization of independent work, the analysis of the scientific and educational literature on the issue. Personality - oriented, systematic, differential and competent approach is offered as a methodological basis of independent work of students. Three stages are allocated in the organization of independent work: information and search, procedural and reflective. An analogy of each phase is carried out with B. Bloom taxonomy. This chapter also provides a definition of independent work.

The second chapter, "Ways of organizing independent work of students in teaching of pedagogical-psychological disciplines," is dedicated to the creation of motivation. It highlights the requirements for the organization of independent work, the role of information and communication technologies, effective ways of organizing independent work. It characterizes the steps of the task, the content of the experimental work and analyzes the results of the study. It presents strategy of scaffolding at the organization of independent work with the web quest.

The main outcomes of research,perspective of further use of the results are noted in the conclusion.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯАЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

На правах рукописи

**ЗЕЙНАЛОВА НИГЯР ЭЛЬДАР гызы**

# ОРГАНИЗАЦИЯ САМОСТОЯТЕЛЬНОЙ РАБОТЫ СТУДЕНТОВ ПРИ ОБУЧЕНИИ ПЕДАГОГИКО-ПСИХОЛОГИЧЕСКИХ ДИСЦИПЛИН

**5804.01 – Общая педагогика, история педагогики и образования**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание учёной степени доктора философии по педагогике**

**Баку - 2015**